## ◆ Kirman Rüstəmli

### Şəhid

*Səbuhi Əhmədov'a*

Əzəldən bəxtinə qara gün doğmuş,
Həyat səni boğmuş, yarıcan boğmuş,
Səni yaradanlar ölmüş, ya yoxmuş?
Bir kəsin olmadı gözləri dola,
Evində ağlaya, saçını yola.

Bu adı kim qoyub sənə Səbuhi?
Yetimə kim edər tənə Səbuhi?
Cavab ver, cavab ver mənə Səbuhi,
Şəhidlik şərbətin içmək asanmış?
Sinən vətən dərdi, ocaq qalanmış.

Şəhidlik vətəndə ucalığındır,
Şəhidlik əbədi cavanlığındır,
Şəhidlik həm toyun, xonçalığındır,
Bir bax,səndən ötrü hamı usanmış,
Alovsuz ,ocaqsız gör necə yanmış.

Qazılan məzarlar əlliymiş, əlli,
Şücaətiniz də bizlərə bəlli.
Axı, sizsiz necə tapaq təsəlli?
İnsanlar hüzünlə sıra dayanmış,
Şəhidlik məqamı bəxtin oyanmış.

Tay –tuşun yığışıb başına sənin,
Bitib tükəndiyi yaşına sənin,
Hərə əlin çəkir daşına sənin,
Sayqıyla baş əyir məzarın üstə,
Oyan,qalx, vətəndən ödülün istə.